THE CONCEPT OF ELECTRONIC DICTIONARY IN LINGUISTICS

Zhala Mammadova[1]
UOT 81. 374.
KBT 81.-4

Keywords:

Word
Meaning
Dictionary
Electronic dictionary
Linguistics

ABSTRACT

The development of different languages and cultures, the expansion of technical capabilities, and the special needs of society led to a new stage in lexicographic theory. The concept of electronic dictionary has been included in the lexicography for more than fifteen years. With the advent of this term, there was a big explosion in lexicography. The concept of electronic dictionary has influenced this field in various ways. Historically, the development of linguistics in connection with the science of mathematics has made this process even more effective. Although dictionaries make the cross directly to electronic format facilitates carrie a great responsibility. It is inevitable that there are pros and cons between a traditional dictionary and an electronic dictionary. The dynamics which created by the concept of electronic dictionary in linguistics has been adapted to today's pandemic. The use of electronic dictionaries in foreign language classes is very important. In the article, these issues are explained in stages. The author talks about how words fall into traditional dictionaries and their cycle of positioning in dictionaries. The article reflects the division of dictionaries into separate areas, the process of converting them into electronic dictionaries.

[1] Ph-d student of ANAS Linguistics Institute, lecterer – Sumgait State University
doctorant.amea@mail.ru
Received: 29.03.2021
Accepted: 07.06.2021

ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

DİLÇİLİKDƏ ELEKTRON LÜĞƏT KONSEPSİYASI

Jalə Məmmədova[1]

UDC 81. 374.
KBT 81.-4

Açar sözlər:

Söz
Məna
Lüğət
Elektron lüğət
Dilçilik

ANNOTASİYA

Müxtəlif dillərin və mədəniyyətlərin inkişafı, texniki imkanların genişlənməsi və cəmiyyətin xüsusi tələbatları leksikoqrafik nəzəriyyənin yeni mərhələyə keçməsinə səbəb oldu. Elektron lüğət konsepsiyası artıq on beş ildən çoxdur ki, dilçilik sahəsinin leksikoqrafiya şöbəsinə daxil olub. Bu termin gəlişi ilə leksikoqrafiya sahəsində böyük bir partlayışa səbəb olub. Elektron lüğət konsepsiyası müxtəlif yollar keçərək bu sahəyə də öz təsirini göstərmişdir. Tarixən dilçiliyin riyaziyyat elmi ilə əlaqəli şəkildə inkişaf etməsi bu prosesi daha da effektli etdi. Lüğətlərin birbaşa elektron formata keçdi işləri yüngülləşdirsə də, özündə böyük məsuliyyət daşıyır. Ənənəvi lüğət və elektron lüğət arasındakı müsbət və mənfi cəhətlərin mövcud olması qaçılmazdır. Dilçilikdə elektron lüğət konsepsiyasının yaratdığı dinamika bugünki pandemiya şəraitinə də uyğun oldu. Xarici dil dərslərində elektron lüğətlərin istifadəsi çox əhəmiyyətlidir. Məqalədə bu məsələlər mərhələ şəkilində öz izahını tapır. Müəllif tarixən ənənəvi lüğətlərdə sözlərin hansı şəkildə lüğətlərə düşməsindən və onların lüğətlərdə mövqe saxlama dövriyyəsindən danışır. Lüğətlərin ayrı-ayrı sahələr üzrə bölünməsi, elektron lüğət formasına düşmə prosesləri məqalədə öz əksini tapmışdır.

[1] AMEA Dilçilik institutu, – Sumqayıt Dövlət Universitetinin müəllimi
doctorant.amea@mail.ru
Məqalə redaksiyaya daxil olmuşdur: 29.03.2021
Təkrar işlənməyə göndərilmişdir: 20.05.2021
Çapa qəbul edilmişdir: 07.06.2021

ПОНЯТИЕ ЭЛЕКТРОННОГО СЛОВАРЯ В ЯЗЫКОВАНИИ

Жала Мамедова[1]
UOT 81. 374.
КВТ 81.-4

Ключевые слова:

Слово
Значение
Словарь
Электронный словарь
Лингвистика

АННОТАЦИЯ

Развитие различных языков и культур, расширение технических возможностей и особые потребности общества привели к новому этапу в лексикографической теории. Понятие электронного словаря входит в лексикографию более пятнадцати лет. С появлением этого термина в лексикографии произошел большой взрыв. Концепция электронного словаря по-разному повлияла на эту область. Исторически сложилось так, что развитие лингвистики в связи с наукой о математике сделало этот процесс еще более эффективным. Хотя перевод словарей прямо в электронный формат облегчает выполнение большой ответственности. Между традиционным словарем и электронным словарем неизбежны плюсы и минусы. Динамика, созданная концепцией электронного словаря в лингвистике, адаптирована к сегодняшней пандемии. Использование электронных словарей на уроках иностранного языка очень важно. В статье эти вопросы объясняются поэтапно. Автор рассказывает о том, как слова попадают в традиционные словари и о цикле их позиционирования в словарях. В статье отражено разделение словарей на отдельные разделы, процесс преобразования их в электронные словари.

[1] Аспирантка Института Лингвистики НАНА, – преподаватель Сумгаитского государственного университета
doctorant.amea@mail.ru

ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

GİRİŞ

Məlumdur ki, dilimizin leksika bölməsini öyrənən dilçilik bölməsi leksikoqrafiya adlanır. Deməli, leksikoqrafiya şöbəsi dilimizin lüğət tərkibindəki sözləri öyrənən dilçilik şöbəsidir. Sözə həmişə yüksək qiymət verilib, onun məzmunu və əhəmiyyəti barədə geniş izahlar verilib. Söz haqqında bir çox klassiklər fikr söyləyiblər. Sözün möcüzəsini, onun sirrlərini, hikmətini açıqlamaq çətin və əlçatmazdır. Lüğətin əsas vahidi söz olmasına baxmayaraq, məqalədə sözün mənasının izahı prinsiplərinə daha çox diqqət yönəldilib. Leksikologiyada öyrənilən sözlər dilin lüğət tərkibidir. Bu sözlərin hər birinin yaranma tarixi və mənası vardı. Hər bir xalqın lüğət tərkibini zənginliyi onun möhtəşəm tarixinin olmasından asılıdır. Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibini dəqiq müəyyənləşdirmək üçün xalqın tarixini, keşməkeşli inkişaf yollarını araşdırmaq vacibdir, çünki lüğət tərkibi uzun bir tarixi inkişaf prosesi keçir. Yakob Qrmin fikrini əsas tutaraq, "Lüğət dilin zənginliyini əsaslandırmalı, onun söz xəzisəni qorumalı hamının ondan istifadə edə bilməsi üçün girişi açıq saxlamalıdır. Lüğət xalqın əzəmətli abidəsidir. Onun keçmişini və indisini əks etdirir".

Leksikoqrafiya əvəzinə çox zaman lüğətçilik termini də işlədilir. Leksikoqrafiyanın əsas məqsədi və vəzifəsi hər hansı bir dilin lüğət tərkibinə daxil olan sözləri, eyni zamanda frazeologiya vahidlərini yığıb sistemə salmaq, mənalarını izah etməkdən ibarətdir. Söz ehtiyatı kasıb olan insan istər-istəməz öz fikrini aydın ifadə etməkdə çətinlik çəkir. Insan nə qədər savadlı olursa olsun, onlar lüğət tərkibinə daxil olan sözlərin hamısını bilə bilməz. Bunun üçün lazım olan istiqamətlərdə lazımi lüğətlərə müraciət etmək gərəkdir [7, 52]

Leksikoqrafiyada baş verən əsaslı dəyişikliklər dilçilik elminin digər elmlərlə əlaqəli şəkildə inkişafı hesabınadır. Başqa elmlər kimi, dilçilik də həm tədqiqat, həm də tədris sahəsində texnikaya müraciət edir. Dil haqqında elmin bir sıra problemləri əsaslı şəkildə həll olunmağa məhz dilçiliyin texniki elmlərlə əlaqəsi nəticəsində baş vermişdir. Dilçiliyin texniki elmlərlə əlaqəsi əsasında yeni terminlər *mühəndis dilçiliyi, hesablama dilçiliyi, kompüter dilçiliyi, elektron dilçiliyi* meydana çıxdı. Bu anlayış altında dili əhatə edən bir sıra mühüm problemlər hələ də aktual olaraq qalır. Elektron hesablayıcı maşınlarla dili sistemli şəkildə öyrənmə, maşın tərcüməsi və leksikoqrafiya məsələləri bu sahənin mühüm məsələlərindəndir. Dilçilik və Kibernetikanın əlaqələrinə A.Qurbanovun əsərlərində rast gəlmək mümkündür. Onun fikrincə Kibernetikanın meydana gəlməsi cəmiyyət və təbiət hadisələrinin dəqiq öyrənilməsinə səbəb olmuşdur [4, 184-185].

Dilçilik və informatika elmi A.Pedronun "Elektron leksioqrafiya" adlı əsərində Ven diaqramı şəkilində qarşılaşdırılıb. Müəllif H.Bergenholtzun elektron leksikoqrafiyası haqqında fikirlərinə istinad edərək, məsələlərə bir az aydınlıq gətirmişdir. O, çap lüğətlərin elektronlaşması prosesi dövründə istifadəçilərin məqsədə daha cəld çatması, rəqəmsal internetdə leksikoqrafiyaya dair informasiyanın ötürülməsini hər iki elmin naliyyəti olduğunu qeyd edir [2, 26-27].

Dilçiliyə riyaziyyatın tətbiqi hər hansı bir dilçi alim üçün dil materiallarının sistemləşdirilməsi, ölçülməsi və ümumiləşdirilməsinə geniş imkan yaradır. A. M. Babayevin əsərlərində adi dil ilə riyazi dilin fərqinə rast gələ bilərik [3, 24-25]. Onun fikrincə, adi dilçilik (söz, söz birləşməsi, cümlə dili) özündə dörd münasibəti – ad (məlumatın maddi daşıyıcısı), denotat (xarici

aləmdə onun əksi), desiqnat (adın məfhumla əlaqəsi), konnotat (əşya və hadisə haqqında hiss) əks etdirir. Riyazi dildə isə bu münasibətlər yoxdur, burada yalnız ad və onun riyazi mənasıdır.

Avtomatik məlumat, maşın tərcüməsi, insan-maşın dialoqu zamanı adi dil materialı riyazi dil əsasında kodlaşdırılır. Adi dildə hər hansı çoxmənalı söz riyazi dilə yalnız bir mənada kodlaşdırılır. Inkişaf onu göstərir ki, yaxın gələcəkdə ənənəvi dilçilikdə olan bir sıra mübahisəli məsələləri kompüter dilçiliyi dərhal həll edə biləcək.

Müasir dilçilikdə linqvistik tədqiqatların avtomatlaşdırılmasına da geniş yer verilir. Bu haqda A.Axundovun əsərlərində rast gəlmək olar. Burada tədqiqatın yeni predmeti maşın kibernetik beyninin əks etdirə biləcəyi dil strukturu əmələ gəlir. Burada elə bir hesablama sistemi (alqoritm) yaradılır ki, qarşıya qoyulan tələb ardıcıl həllini tapsın. Elektron hesablama maşınlarında hər hansı bir proqramlaşdırma aparmaq üçün alqoritm dilindən istifadə edilir. Bu cür maşınlar fonetik laborotoriya üçün zəruridir [1, 237-238]. Dilin riyazi-statistik metodların köməyi ilə tədqiqinə dilçi-lərin də münasibəti birmənalı deyildir. Hətta o dövrün görkəmli dilçiləri də belə tədqiqatların perspektivinə inanmırdılar.

Ümumiyyətlə, bu sahə ilə bağlı bir çox dilçilərin fikrlərinə rast gəlmək olar. Алексеев П.М: “Hesablama texnikası və riyazi statistikanın leksikoqrafiyaya tətbiqi lüğətçilikdə yeni bir sahənin – statistik leksikoqrafiyanın yaranmasına səbəb olmuşdur” [5, 85].

1979-cu ildə A.Axundovun “Riyazi dilçilik” kitabının çapından sonra dilçiliyin bu yeni sahəsinə olan münasibət tədricən dəyişməyə başladı [6, 12]. Sonralar “Kitabi-Dədə Qorqud” dastanlarının və Məhəmməd Füzulinin nəzm əsərlərinin statistikası sahəsində araşdırmalar aparılmağa başlandı. Həmin vaxtlarda maşın tərcüməsi, dilin mühəndis dilçiliyi metodları ilə tədqiqi istiqamətində bir çox uğurlar qazanıldı. Azərbaycan qəzet dilinin tezlik lüğəti və Azərbaycan dilinin əski əlifba lüğətinin çapı o dövrlərə təsadüf edir. 80-ci illərdə çapa təqdim olunmuş Azərbaycan dilinin əks əlifba lüğəti Azərbaycan dilinin orfoqrafiya lüğətinin artırılmış və təkmilləşdirilmiş üçüncü nəşri əsasında hazırlanmışdı. Lüğət sözlüyü qismən köhnəldiyindən təbii ki, həmin sözlük yeni nəşrdə əsas götürülə bilməzdi. Azərbaycan dilinin əski əlifba lüğəti orfoqrafiya lüğətinin son variantı əsasında, latın qrafikasında tərtib olunmuşdur. Əvvəlki variantda lüğətdə təxminən 60 min söz verilmişdirsə, çap olunmuş kitab təxminən 80 minə yaxın sözü əhatə edir.

Prof. M.Ə.Mahmudovun elmi axtarışlarının məhsulu olan “Kompüter dilçiliyi” əsəri Azərbaycan dilçilik elminə layiqli töhfədir. Bundan başqa, V.Y.Pines və M.Ə.Mahmudovun “Elektron hesablayıcı maşınlar dilçilikdə”, K.A.Vəliyevanın “Mətnin avtomatik sintaktik təhlili və sintezi”, “Mətnlərin avtomatik redaktəsi”, “Kitabi-Dədə Qorqud dastanlarının statistik təhlili” və digər elmi əsərlər elektron dilçilik elminin gələcək inkişafından xəbər verir [7, 34-35].

Azərbaycan dilçiliyində baş verən bu dinamika maşın tərcüməsi, mətnlərin formal təhlili, müxtəlif lüğətlərin tərtibi və s. bu kimi məsələlərlə daha çox qeyri-dilçilər, dəqiq elmlərin nümayəndələri məşğul olmasına aparıb çıxartdı. Dil materialı üzərində araşdırmalar aparan və texnika sahəsində elmi dərəcə alan mütəxəssislərin sayı da indi nəzərəçarpacaq dərəcədədir (Ə.Fətullayev 2006; Əmirov, 2006; R.Fətullayev, 2010; Mamedova, 1984 və b.). Cümlənin formal sintezi alqoritmlərinin yaradılması və tətbiqi məsələlərinə R.Ə. Fətullayevin əsərlərində

rast gəlmək olar. İngiliscə-azərbaycanca maşın tərcüməsi sistemində felin çoxmənalılığının alqoritmik həllinə isə Ə.A.Əliyevin elmi araşdırmalarında rast gəlirik.

Ümumiyyətlə müşahidələr göstərir ki, dilçiliyin başqa elmlərlə əlaqəsi ona zərrə qədər xələl yetirmir, əksinə, onun sürətli inkişafına səbəb olur.

"Elektron lüğət" fenomeni dilçilik elmində, təxminən, son on beş ildə yaranan termindir. "Kompüter leksikoqrafiyası"termini isə dilçilik elmində daha əvvəl yaranmışdır. Həmin anlayışı 1976-cı ildə Y.N.Marçuk "Hesablayıcı leksikoqrafiya", 1984-cü ildə E.V.Vertel "Maşın leksikoqrafiyası", 1985-ci ildə O.A.Kazakeviç "Avtomatlaşdırılmış leksikoqrafiya", 1990-cı ildə V.V.Markovkin "Kompüter leksikoqrafiyası" adlandırmışlar.

Y.N.Marçuk bu adları "kompüter linqvistikası" adı altında ümumiləşdirir və linqvistikanın aktual problemlərinin həlli birbaşa müasir proqram təminantlı kompüterlərin köməyi ilə müzakirə edildiyini qeyd edir.

Q.M.Mandrikova "hesablayıcı leksikoqrafiya", "hesablayıcı maşın" və "avtomatik leksikoqrafiya" terminlərinin eyni tipli olmasını və bütün bunların arxasında yalnız bir vasitənin, kompüterin mövcudluğunu vurğulayır. O, belə bir nəticəyə gəlir ki, "kompüter leksikoqrafiyası" termini leksikoqrafiya sahəsi kimi dilçiliyin ayrı şöbəsi olaraq qəbul edilsin. Bu elmin məzmununu müxtəlif növlü kompüter lüğətlərinin nəzəri və praktiki məsələlərinin olması təşkil edir, həmçinin bu problemə aid olan bütün nəticələrin dərk edilməsidir.

V.V.Dubiçinski "Rus dilinin leksikoqrafiyası" adlı əsərində bugün kompüter leksikoqrafiyasının qarşısında duran problemləri belə təsvir edir.

1. Leksik və terminolji bankın neytrallığını mövcud linqivistik nəzəriyyənin və baxışların inkişafını nəzərə alaraq təmin etmək;
2. Kompüter lüğətlərinin normal və standart inkişafı;
3. Adekvatlıq necə təsvir olunursa, mövcud lüğətlərdə elə də təqdim olunur;
4. Mövcud kompüter lüğətlərinin elmi tədqiqat və təlim sahəsində müstəqil yayımı.

Onun fikrincə, avtomatik leksikoqrafik işin müasir vəziyyəti bu və ya digər dil vahidlərinin istifadəsində dəyişikliyi, mətn və mətn komplekslərinin tərtib edilməsi onların müxtəlif məqsədli istfadəsi üçün şərait yaradır. Kompüterləşmə tək leksikoqrafiyanın iş üslubunu dəyişmir, həmçinin onların aktivliyini və effektivliyini artırır, yeni tapşırıqlar qoyulmasına imkan verir, hansı ki, bunu ənənəvi leksikoqrafiyada həyata keçirmək mümkün deyildir.

Kompüter linqvistikası məsələləri bir çox tədqiqat işlərinin mövzusudur. Kompüter leksikoqrafiyasının bəzi problemləri 1980-ci ilin əvvəllərində yaradılmış Kompüter Linqvistikası Assosiasiyasında A.S.Qerda, V.M.Anryuşenko, Y.N.Marçuk, İ.İ.Ubina, S.V.Merkurova, V.V.Morkovkin, Q.M.Mandrikovavə digər görkəmli leksikoqrafların iştirakı ilə müzakirə olunub [8,62-63].

İlk məlumat bazasının əsasında yaranan lüğətlər ABŞ-da 1956-cı ildə yaradılıb. Elektron məlumatlar bazasının əsasında bir çox tanınmış lüğətlər yaradıldı. Bunlardan ən məşhuru 1996-cı ildə yaradılmış "Webster's English Dictionary" elektron lüğətidir.

Bundan əlavə, lüğətlərin kompüterləşməsi məsələsinə L.Lipkanın əsərlərində rast gəlmək olar. O, bir faktı qeyd edir ki, 1984-cü ildə ABŞ-da Edmund Weiner Oksford ingilis dili lüğətinin kompüterləşməsinin

məsuliyyətini öz üzərinə götürmüşdür. Hazırda bu lüğətlərin həm CD-disklərdə, həm onlayn istifadəsi mümkündür. Oksford ingilis dili lüğəti 1988-ci ildə ilk kompakt diskə yazılan lüğətdir. “Bugün artıq lüğətlər bir xətt üzrə avtomatik bir proqramda emal olunur. Lüğət tərtibatçısı lüğətin leksik bazasını kompüterin köməyi ilə yoxlaya bilər. Bu dövrü kompüter əsri adlandırmaq olar”.

İlk olaraq, kompüterlərdən istifadə üsuluna leksikoqrafın işinin avtomatlaşdırılması prosesində bir vasitəsi kimi baxılıb. Kompüter leksikoqrafiyasının bir çox üstünlükləri mövcuddur. Kompüterlərdən istifadə leksikoqrafiya materialını istənilən şəkildə, zəruri qaydada yığmağa, sözün tezliyini müəyyən etməyə, şəkillər çəkməyə, illüstrasiyalı sitatlar yaratmağa, sözün etimologiyasını tapmağa və sair imkanlar verir. İnternetdə mövcud olan elektron lüğətlərə misal olaraq aşağıdakıları aid etmək olar: Merriam Vebster, Oxford Dictionary, Cambridge Dictionary, Azer.Dict, Poliqlot, Dilmanc, Abbyy Lingvo 12, Multileks Delyuks 6.4, Kontekst 7.0, Multitran 3.44, VER-Dict 2.0 Qiqant, Poliglossum 3.71 və başqaları.

Nəticə

Qlobal internet leksikoqrafiya elminə təsir edərək, lüğətlərin elektronlaşması prosesinə əlverişli şərait yaratdı. Kompüterlər lüğət tərtibatının işini sürətləndirdi, lüğətlərlə işi asanlaşdırdı. İnternetin təsiri nəticəsində lüğətlər formasını tamimilə dəyişdi. Lüğətlər kompüter lüğətləri və elektron lüğətlər adı altında fəaliyyətə başladı. Kompüter lüğətləri ilə elektron lüğətləri arasında fərq böyükdür. Belə ki, kompüter lüğətlərində iş ənənəvi lüğətlərdəki kimidir. Axtarış funksiyası məhdudiyyətlidir, sorğuya cavab vermir, istifadəçi ilə əlaqə yaratmır və heç bir texniki funksiyalara malik deyil. Elektron lüğətlər əsasən ənənəvi lüğətlərdən bəhrələnir, lakin burada iş, çap lüğətlərinə nisbətən daha asandır. Elektron lüğətlərdə axtarış məhdudiyyətli deyil, sözlər əlifba ardıcıllığı ilə düzülüb və istifadəçinin sorğusuna dərhal cavab verəcək qabilliyyətə malikdir. Elektron lüğətlərin yaranması ənənəvi lüğətlərin həm formasını həm də məzmununu dəyişdi. İri həcmli lüğətlər artıq elektron daşıyıcılara (CD, flaş) köçürülə bildi. Ənənəvi lüğətlərdən fərqli olaraq, elektron lüğətlərdə əsas iş təkcə sözlərin əlifba ardıcıllığı ilə düzülüşü deyil, həmçinin sözlərin və söz birləşmələrin elektron lüğətlərdə fərqli təqdimi, onların izahını nümunələrlə, geniş lüğət məqalələri ilə mükəmməl şəkildə ən son multimedia elementləri ilə təqdim etməkdir. Yəni elektron lüğətlərdə sözlərin təqdimatı rəngli, şəkilli, qrafikli, səsli tələffüzlü və video görüntülü ola bilər. Sözlərin elektron lüğətlərdə izahı dil normalarına uyğun şəkildə verilməlidir. Lüğətdə sözün mənasının açılmasında kontekst və situasiyadan, omonim, sinonim və antonimdən, frazeoloji birləşmələrdə, idiomlarda istifadə edilə bilər. Lüğət məqalələri genişdir. Sözlərin müxtəlif dillərdə tərcüməsini həyata keçirtmək mümkündür. Elektron lüğətlərdə sözün mənası geniş şəkildə, nümunələrlə göstərilir. İri həcmli lüğətlər hazırlanana qədər bəzi sözlər köhnələ bilər. Belə olan halda, elektron lüğətlər ənənəvi lüğətlərdən fərqli olaraq daim yenilənə bilər. Müəyyən müddət keçdikdən sonra orada redaktə işləri aparmaq mümkündür. Sürətli axtarış yalnız elektron lüğətlərə məxsusdur. Sözün ilk bir neçə hərfini yazmaqla belə axtarışı həyata keçirmək olar. Elektron lüğətlərdə dəqiq axtarış mümkündür. Elektron və çap lüğətlərinin bir-birindən fərqləndirici xüsusiyyətləri coxdur, lakin onların yeganə oxşar cəhəti hər ikisinin informasiya daşımasıdır. Fərqli xüsusiyyətləri isə onların axtarış sistemi, texniki funksiyaları və texniki aspektləridir. Ənənəvi lüğətlərdə sözlər xətti funksiya ilə düzülür, elektron lüğətlərdə isə

bu fraqment şəklindədir. Elektron lüğətlərdə müxtəlif hiperlinklərə keçid mövcuddur. Bu həmin lüğətlərin birgə fəaliyyətidir ki, istifadəçi sözün mənasını daha cəld və rahat şəkildə əldə edə bilsin. Elektron lüğətlərin istifadəsi tədrisdə, dil öyrənmə prosesində əlverişlidir. Elektron lüğətlərdə bir neçə operatorlar müxtəlif əməliyyatlar yerinə yetirə bilər. Lakin bu elə tərtib olunmalıdır ki, istifadəçini məqsəddən yayındırmasın. Pəncərə üstünə pəncərələrin açılması istifadəçinin diqqətini yayındıra bilər. Bütün bu texniki göstəricələrə və üstünlüklərə baxmayaraq elektron lüğətlərin təkmilləşməyə ehtiyacı vardır.

ƏDƏBİYYAT SİYAHISI
(References)

1. Qurbanov A. Ümumi dilçilik. I cild (2 cilddə), Bakı, Nurlan, 2004, 748s
2. Pedro A. Fuertes-Olivera., Bergenholtz H. E-Lexicography. The Internet, Digital Initiatives and Lexicography. London/New York: Continuum. 2011. 341p
3. Babayev A.M. Dilçiliyə giriş. Bakı, Maarif, 2004, 504s
4. Axundov A.A. Ümumi dilçilik. Bakı, Şərq-Qərb, 2011, 278s
5. Алексеев П.М. Статистическая лексикография. Учебн. пособие. Ленинград, Ленинградский пед. Институт им.А.И.Герцена, 1975, 120с.
6. Axundov A.A. Riyazi dilçilik. Xülasələr və təfriqələr. Dərs vəsaiti. Bakı, ADU, 1979, 79s
7. Mahmudov M. Ə. Kompüter dilçiliyi. Bakı, Elm və təhsil, 2013, 352 s
8. Рублева О.С. Слово в электронном словаре (с позиций пользователя электронными ресурсами). дис. докт. филол. наук. Тверь, 2010, 130 с.